# "Azərbaycan Kinosu Günləri"



**Ölkəmizin Türkiyədəki səfirliyinin nəzdində fəaliyyət göstərən Azərbaycan Mədəniyyət Mərkəzinin və Respublika Kino Agentliyinin dəstəyi ilə İstanbulda "Azərbaycan Kinosu Günləri" keçirilib.**

Layihəyə əsasən 4 gün davam edən kino günləri çərçivəsində Mədəniyyət Nazirliyinin dəstəyi ilə son illərdə istehsal olunan filmlərimiz nümayiş olunub.

Kino günləri çərçivəsində milli təsviri sənət tariximizdə dəzgah boyakarlığının banisi kimi tanınan Mirzə Qədim İrəvaninin (1825-1875) həyat və yaradıcılığından, eyni zamanda qədim İrəvan şəhərinin tarixi və mədəni irsindən bəhs edən "Cənnət yuxusu" bədii-sənədli filmi nümayiş etdirilib.

Əsər Prezident İlham Əliyevin Mirzə Qədim İrəvaninin 200 illik yubileyinin qeyd edilməsi haqqında Sərəncamına əsasən Mədəniyyət Nazirliyinin sifarişi ilə "Yaradıcı Azərbaycan" Tədbirlər Planı çərçivəsində lentə alınıb.

Film "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası" ilə bağlı təsdiqlənmiş tədbirlər planına uyğun olaraq dövlət büdcəsindən ayrılan vəsait hesabına Azərbaycanın Mədəniyyət Nazirliyinin sifarişi və dəstəyi ilə ərsəyə gəlib. Filmin premyerası Heydər Əliyev Mərkəzində keçirilib.

"Azərbaycan Kinosu Günləri" çərçivəsində "Cənnət yuxusu" filmi İstanbulun Bahçeşehir Universitetində nümayiş etdirilib. Filmin nümayişindən öncə çıxış edən Azərbaycan Mədəniyyət Mərkəzinin direktoru Samir Abbasov ölkələrimiz arasında bütün istiqamətlərdə olduğu kimi, mədəniyyət sahəsində də əlaqələrin hər gün daha da genişləndiyini, müxtəlif layihələrin uğurla həyata keçirildiyini qeyd edib.




Bahçeşehir Universitetinin prorektoru, kino və televiziya bölməsinin rəhbəri, professor Nilay Ulusoy çıxışında təşkil edilən günlərin Türkiyədə yeni Azərbaycan filmlərinin tanıdılmasına xidmət etdiyini vurğulayıb.

"Cənnət yuxusu" bədii-sənədli filminin rejissoru, Azərbaycanın Əməkdar incəsənət xadimi Elxan Cəfərov isə ekran əsərinin hazırlanma prosesi və Mirzə Qədim İrəvani ilə bağlı fikirlərini bölüşüb.

"Azərbaycan Kinosu Günləri" ilə bağlı növbəti bir tədbir İstanbul Universitetində keçirilib. Burada "Tənha insanın monoloqu" bədii filmi nümayiş etdirilib. Filmin rejissoru və ssenari müəllifi Emin Əfəndiyevdir.

Universitetin kommunikasiya fakültəsinin radio-televiziya və kino bölməsinin rəhbəri Onur Akyol Azərbaycanın zəngin mədəniyyətinin daima Türkiyədə maraqla qarşılandığını deyərək iki öllkə arasındakı tarixi dostluq və qardaşlıq bağlarını vurğulayıb. Kino sənətinin incəsənətin mühüm bir qolu olduğunu vurğulayan bölmə rəhbəri filmin nümayişinin tələbələr üçün əhəmiyyətindən bəhs edib. Tədbirdə dosent Ümid Sarının "Tənha insanın monoloqu" filmi barədə təhlili dinlənilib. Sonra filmə baxış keçirilib. Nümayişin ardından rejissor Emin Əfəndiyev tələbələrin filmlə bağlı suallarını cavablandırıb.



Tədbirin moderatoru İstanbul Universitetinin kommunikasiya fakültəsinin doktorantı Səidə Ömər isə bu ali təhsil müəssisəsinin tələbələrinin Azərbaycan filmlərinin elmi məqalə və tezislərində daima təhlil etdiklərini, yeni filmlərimizin gələcəkdə tələbələr tərəfindən araşdırma mövzularına daxil ediləbiləcəyini vurğulayıb.

"Azərbaycan Kinosu Günləri" ilə bağlı növbəti bir tədbir "Atlas" adına kinoteatrda baş tutub. Kinoteatrda Mirbala Səlimlinin rejissorluğu ilə ərsəyə gələn "Qırmızı bağ" filmi nümayiş etdirilib. Xatırladaq ki, insan və təbiət arasında münasibətlərdən, arzuların gerçəkləşdiyi məkandan bəhs edən "Qırmızı bağ" filmi ucqar bir kənddə orta məktəbdə işləyən, sadə həyat tərzi keçirən bir müəllimin həyatından bəhs edir.

Qeyd edək ki, İstanbulda keçirilən "Azərbaycan Kinosu Günləri"ndə iştirak məqsədilə ölkəmizdən Mədəniyyət Nazirliyinin sektor müdiri Günay Rəhimova, Kino Agentliyinin kino mədəniyyətinin təbliğatı şöbəsinin aparıcı məsləhətçisi Turan Məmmədli, Film Fondunun arxiv şöbəsinin müdiri Rəşad Qasımov, rejissorlar Elxan Cəfər və Emin Əfəndi, eləcə də aktyorlar Gülzar Qurbanova və Elşən Rüstəmovdan ibarət nümayəndə heyəti Türkiyəyə səfər edib.

**Esmira YAZKAN ASLANOVA,**
**"Respublika" qəzetinin**
**Türkiyə üzrə müxbiri.**

Respublika .- 2025.- 15 may(№99).- S.14